**K.Ş.KAZIMOV**
*filologiya elmləri doktoru, professor*
*e-mail: kkamran@mail.ru*
**:https://orcid.org/0000-0003-4801-3823**

**Lənkəran Dövlət Universiteti**
(Lənkəran şəh., General H.Aslanov xiyabanı, 50)

**10.62021/0026-0028.2025.2.179**

**UOT-82-09.**

# ELŞAD SƏFƏRLİ LİRİKASINDA İKİNCİ QARABAĞ MÜHARİBƏSİ MÖVZUSU – MƏNƏVİ BİRLİK VƏ VƏTƏNİN BÜTÖVLÜYÜ İDEYALARI

***Xülasə.*** *Məqalədə şair Elşad Səfərlinin lirikasında İkinci Qarabağ müharibəsi mövzusuna toxunulmuş, bu fonda Vətən milli mənlik şüurunun tərbiyəsi və vətəndaşlıq motivlərinin ideya-bədii xüsusiyyətləri araşdırılmışdır.*
*Bir sıra konkret nümunələr üzərində izah və təhlillər aparılmış, onların mənəvi-estetik, yurda, torpağa, Vətənə bağlılıq konteksi müəyyənləşdirilmişdir. Bu xüsusda, "Bir anın yuxusu" poemasında şəhid baş leytenant Vüsal Kazımovun qəhrəmanlıq salnaməsinə Azərbaycan döyüşçüsünün ümumiləşdirilmiş örnək tarixi kimi istinad edilmişdir.*
*Məqalədə, həmçinin "Mavi məsafə" poemasına qısa təhlili baxış keçirilmiş, Azərbaycan xalqının milli-azadlıq, mənəvi birlik, vahidlik, Vətənin bütövlüyü idealları uğrunda mübarizəsi bu poemada özünüdərk və özünütəsdiq faktı kimi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *Lirika kontekst, salnamə, baş leytenant, Qarabağ, ideal*

Elşad Səfərli şeirinin çoxşaxəli mövzuları zəncirində birləşdirici, tamamlayıcı həlqə – vətən mövzusudur. Digər yardımçı mövzular, pərvanə şamın başına dolandığı kimi, yalnız vətən mövzusunun ətrafında dolanmaqdadır. İstər şeir olsun, istərsə də poema, fərq etməz. Vətən, vətənpərvərlik və vətəndaşlıq motivləri vətən mövzusunun səciyyələndirici ümumi cəhəti, cəmidir. Bu amil onun şair və sənət mövqeyinin, bəlkə də əsas şərtidir.

Lakin vətən mövzusu təkcə həmin meyarlarla məhdudlaşmır. Onu mənəvi birlik, milli şüurun tərbiyəsi və vətənin bütövlüyü ideyaları da əhatə edir. Eyni zamanda, bu ideyaların vətənin qorunması, yadelli işğallardan, yad təcavüzlərdən mühafizəsi kimi böyük şərəf və ləyaqət duyğusu da vardır.

Təəssüflər olsun ki, Azərbaycan öz hüdudlarında XX əsrin sonlarında rus-erməni qəsibkarları tərəfindən dəfələrlə hərbi güclərin qeyri-bərabərliyi şəraitində bu cür təcavüzlərlə, işğal faktları ilə üzləşməli olmuşdur.

Əslində bizim üçün yaradılmış bu ağrılı probleminin əsası Rusiya ilə İran arasında 1813-cü il 12 oktyabr tarixində bağlanmış "Gülüstan" sülh müqaviləsi ilə qoyulmuşdur. Birinci və İkinci Qarabağ müharibələri də həmin problemin tərkib hissələridir.

Parçalanmış Azərbaycan probleminə çox-çox sonralar isə itirilmiş Qarabağ problemi də əlavə olundu.

Təəssüf doğurucu faktdır ki, parçalanmış Azərbaycan probleminə poeziyamızda böyük xalq şairimiz B.Vahabzadənin "Gülüstan" poemasından başqa etirazedici, cəsarətli elə bir poetik nümunəyə təsadüf etmədik. Poeziyamız bu ağrını dilinə gətirə bilmədi, konyunktur, sosiologizm mövzuları ətrafında dolanmağa üstünlük verdi. Bəlkə də buna məcbur idi...

Birinci Qarabağ müharibəsinin ağrı-acılı nəticələrinin mövcudluğu dövründə də poeziyamız ucuz, şablon, trafaret səslənən "vətən sevgisi"ndən irəli gedə bilmədi. Silaha qurşanıb vətə-

ni işğaldan qurtarmağı düşünmək əvəzinə, millətin bəlkə də yarısı qədər, ucuz, saxta patetikadan irəli gedən bilməyən sözbaz adamlar "şairliklə" məşğul olmağı hər şeydən üstün tutdular.

Məhz belə bir məqamda Elşad Səfərli belələrinə qarşı sözünü ötkəm deməyi bacardı, ümumiyyətlə, bu cür heç də xoş görünməyən mənzərəyə kinayəli mövqe nümayişindən qala bilmədi.

Azadlıq deyilən şey
Keşməkeşli bir yoldu.
Bu yolda çarpışan xalq,
Yalnız müstəqil oldu.

Bir yanda qaçqın, fağır,
Bir yanda kef, çal-çağır.
Adam var sərvət yığır,
Torpağısa işğaldı.

Heyrət, yurdum, min heyrət
Kimsədə yoxmu qeyrət?!
Torpağı işğal millət,
Şairliklə məşğuldu. [5, s. 51-52]

"Məmləkətə ulduz yağışı yağır" şeirində isə torpağının iyirmi faizindən çoxunu rus-erməni qəsibkarlarına uduzan, lakin paqonlarına növbəti general ulduzlarını düzən generallara acı istehzası kəskin sarkazm kimi mənalanır.

Məmləkətə
Ulduz yağışı yağır.
Çadırlardan
Ulduz yağışına baxır
Fağır-fağır,
Qaçqın, köçkün balaları.
Çiyinlərə yağış yerinə
Göydən iri-iri
Ulduzlar yağır.

Paqonlarına
Növbəti ulduzları düzməknən məşğuldu,
Məğlub ordunun generalları.
Döyüş uğurları var bəlkə?...
Bundan qürur duyurmu
Çadırlı
Qızları qara çadıralı ölkə?! [4, s. 58]

Mərhum şair-tarixçi alim Şahin Fazil bu şeirə xitablı, emosional bir izah verir: "Bildinizmi nədir ulduz yağışı? Paqonlarına növbəti ulduzları düzməklə məşğul olan ordu generallarının əvəzinə xəcalət çəkdinizmi? Duydunuzmu bu ulduz yağışına çadırlardan baxan qara çadralı qaçqın, köçkün balaların dərd-qübarını?! [4, s. 229-230]... Sitat müəllifinin sualları heç də qarşı tərəfdən cavab almaq məqsədi güdmür, bunlar bədii suallardır. Müəllifi sadəcə, acınacaqlı məğlubiyyətin qarşısında paqonuna general ulduzunu tikən generalların bu təzadlı, mahiyyəti ilə uyuşmayan hərəkətlərini sakit, təmkinlə qarşılaya bilmir. Qara çadralı qızların, ulduz yağışına fağır-fağır baxan qaçqın-köçkün balaların fonunda general rütbəsi verilən generalların təmtərağını başa düşmür, fikrini qarşıdakılara təsirli çatdırmaq üçün güclü ifadə vasitəsi olan bədii suala müraciət edir. Öz həyəcan, əsəbi, çılğın emosiyasını, əhvali-ruhiyyəsinin pisliyini, cəbhədə bizimkilərin məğlubiyyətinə görə pərişanlıq hisslərinin ekspressiv ifadəsinə çalışır, bədii sualdan məharətlə istifadə əsasında özünün təəccüb və təəssüfünü vətəndaşlıq yanğısı ilə verə bilir. Bundan qürur duyurmu qızları qara çadralı ölkə? – misralarının tənə məzmununu ölkə məmurlarına çatdırmağı da unutmur.

"Torpaq adamının oğluna öyüdü" şeirində isə tənə, istehza predmeti kimi bu dəfə generallar, məmurlar deyil, doğma yurdunu, torpağını atıb şəhərə qaçanlardır. Bunların sırasında torpağını vicdansızcasına satan, ayağını torpağına basmaqdansa asfalt küçələri gəzməyi xoşla-

yanlar da az deyil. Qarabağ məğlubiyyətimizin əsas səbəblərindən biri kimi bu amil də həmin şeirdə özünə yer alır:

Qoru bu torpağı, oğul, qoru sən,
Üzü dönüklərə qaçıb qarışma.
Bala, bu torpağın güvənc yerisən,
Çətində asfaltdan gedib yapışma.

Çətində asfaltdan gedib yapışma,
Qalıb öz yurdunda od-ocaq qala.
Asfaltdan torpağa havadar olmaz,
Olsaydı Qarabağ getməzdi, bala. [5, s. 28-29]

Atanın oğluna: “bacar bu torpağın dilini öyrən, bu torpağ uğrunda ölməyi bacar; asfalt vicdanlılar satan torpağı, özgəyə güvənmə, çalış sən qaytar!” öyüdündə – mənim asfalt üstə böyüyənlərin, torpaq söhbətinə, çünki şübhəm var! – kimi pessimist düşüncəyə rast gəlsək də, torpağa, vətənə bağlılıq hisslərinin aşılanması xüsusiyyətinə görə bu şeirin əhəmiyyətlilik statusu diqqətçəkəndir.

Misralarda əksini tapan: asfalt sevən, asfalt üstə böyüyənlər, asfalt vicdanlılar kimi ifadələrdə “asfalt” sözü predmet yox, mənfi məzmunlu epitet səciyyəlidir, müharibə zamanı Qarabağdan yayınıb asfalt küçəli paytaxta qaçanların sifətini, xislətini kifayət qədər dolğun xarakterizə edən obraz qismində yenidir, tapıntı mahiyyətlidir.

İşğal faktına qarşı etiraz notlarını özündə birləşdirən “Qisas himnləri” poema-sonetlər çələngində müəllif qayəsi, ideyası nikbin notlar üstə daha qətiyyətli, elə himn kimi səslənir. Mövcud Qarabağ problemi bu poema-çələngin bütün ayrıca sonetlərində misra-misra incələnir. Poema hüdudunda on beş sonet Qarabağ dərdimizin ayrı-ayrılıqda həmin akkordları təsiri bağışlayır. Poema hiss-həyəcan, emosiya baxımından çox təsirli, polifonik ekspressiyaya malikdir. Burada ən mühüm cəhət ermənipərəst bir sıra Qərb dövlətlərinin başımızın altına yastıq qoymaq siyasətinin təcəssüm görüntüsü kimi görünən – Qarabağ probleminin hərblə həlli yoxdur – kimi sərsəm, saxta, məkrli, başaldadıcı niyyətlərinə qarşı inkaredici, qətiyyətli şair-vətəndaş mövqeyinin nümayişi ilə bağlıdır.

Aşağıdakı tersetlər həmin qətiyyətli etirazın təcəssüm faktlarıdır:

Hərbnən alınan yeri sülhnən verən kimdi ki?
Gülləynən alınanı gülnən verən kimdi ki?
Vətən, xam söhbətləri sən haqq bildiyin yetər.

Torpaq sözlə verilmir... min il də belə getsə,
Atəşkəsin özü də əgər məğlubiyyətsə,
Azərbaycan, vətənim, ta gözlədiyin yetər. [4, s. 210]

Maraqlıdır ki, iyirmi dörd il bundan əvvəl şair Elşad Səfərlinin misralarında böyük inamla özünə yer tapmış bir həqiqət işğal edilmiş ərazilərin yalnız hərb yolu ilə geri qaytarılmasının mümkünlüyü ideyası Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti və Azərbaycan ordusunun şücaəti sayəsində məhz hərbi yolla geri qaytarıldı. Bu həm də E.Səfərlinin baş verən hadisələrdən düzgün nəticə çıxarmasının, uzaqgörənliyinin fəal şair-vətəndaş mövqeyinə sahib olmasının poetik nümayişinin göstərici amilidir.

E.Səfərli yaradıcılığında İkinci Qarabağ müharibəsi mövzuları sırasında onun “Bir anın yuxusu” lirik poemasının sənətkarlıq və bədii xüsusiyyətlərinə görə öz parlaq yeri vardır. Bu poema igid, mübariz, şəhid qəhrəman baş leytenant Vüsal Kazımovun 44 günlük cəsarətli döyüş yoluna və onun simasında fədakar Azərbaycan döyüşçülərinə həsr edilmişdir. Bunu da qeyd edək ki, bu poemanın təsvir predmeti təkcə şəhidlik mövzusu deyil, həm də qırx dörd günlük İkinci Qarabağ müharibəsinin igid, fədakar oğullarının Vətən uğrunda qəhrəmanlıq mücadiləsinə arxa cəbhə insanlarının qürurla şahidlik mövzusudur. Bu poema heç də müharibə ağrı-acılarının, ana-bacıların üzüntülü – hüznlü məqamlarının tərənnümü deyil, çünki hüzn,

kədər, dərd, qəm lirikada tərənnüm yox, təkcə təsvir olunur. Və bu poema da lirikanın stixiyasına zidd, prozaiklikdən uzaq, yalnız qəhrəmanlığın təsvir poemasıdır. Bu poema əyaniliyin, reallığın təcəssümüdür, insanı kövrəltmək, onun duyğularına təsir "sığalını" çəkmək kimi lüzumsuz lirik qatqılardan tam uzaqdır. Burada mövzu insanı kövrəltməyə, təsirlənməyə yox, kritik məqamlarda dözümlülüyə, fədakarlığa, mətinliyə, Vətən uğrunda mübarizədə birliyə çağırış tendensiyalıdır, səfərbər ruha motivlidir.

Poemanın yazılma səbəbi də maraqlıdır, başlanğıc beş misra bir növ atanın qabaqcadan nəyisə duymaq, sezmək impulslarının göstəricisidir. Fikrə getmiş atanın birdən əlini döş cibinə atıb cəbhəyə yenicə yola saldığı oğlunun şəklinə diqqətlə baxması və qürurla – Merdi zoə merd – söyləntisi bəlkə də poemanın ilk kövrəkləndirici, təsirləndirici, ancaq stol həmkarına büruzə verilməyən xəfif, mənalı məqamıdır. Atanın "Merdi zoə merd (azərbaycanca – kişi oğlu kişi!) nidası, əslində oğlunun Vətən müharibəsində kişi oğlu kişi kimi vuruşacağına, mərdlik, qəhrəmanlıq göstərəcəyinə bəslənilən böyük inam, eyni zamanda fəxr nidası idi. Aşağıdakı beş misralıq parça deyilənlərin adekvat sübut faktıdır:

Çay stolu ətrafında –
Gözündə həsrətli bir dərd,
Ata oğlunun şəklinə
Qürurla baxıb söylədi: –
"Merdi zoə merd"! [6, s. 13]

"Merdi zoə merd" ifadəsi həm də qələbəyə inam soraqlıdır...

Dünəndə bir Vüsal vardı –
Vüsal vardı – merdi zoə merd!
Düşmənə qan uddururdu
Mərd oğlu mərd!

Onun qisas həmləsindən
Gəbərirdi neçə düşmən,
Neçə namərd.
Tarix yazanlardan oldu
Xocavənddə, Cəbrayılda
Füzulidə mərd oğlu mərd! [6, s. 13-14]

Şair ekspozisiya mahiyyətli lüzumsuz təfsilatlara varmır, kiçik lirik məkanda obrazlı vasitələrlə qəhrəman haqqında geniş təəssüratlar yaratmağa çalışır. Belədə onun qələmi çox lakonikdir, texnokrat üslub konkterliyinə sadiqdir. Ona görə də onun misraları süni obraz libaslarından uzaqdır, təbiidir, inanılandır. Bənd arxitektonikasında onun poetik "gəzişmələri" sərbəstdir, özünəxasdır. Təsir effektini gücləndirmək üçün misralararası ritm, ahəng harmoniyası sistemlidir, sinxrondur. Məzmun yükü misralarda siqlətlidir, axıcıdır, səlisdir, rəvandır. Buna görə də əksər parçaların oxusu "birnəfəsə" alınır. Bəzi bölümlərdə əksər misralar metaforikləşir, bədii təsvir və ifadə vasitələrindən istifadə məharəti daha da güclənir və demək olar ki, həmin bölümlər, ümumən obrazlı deyim dominantlığı qazanır və bu xüsusda həmin obrazlı vasitələr: metafora, təşbeh, epitet, metonimiya və digər məcaz növləri baş leytenant Vüsal Kazımovun hərbçi portretində yeni kefiyyətləri üzə çıxarır:

Səni güllə qasırğası
Füzulidə qarşıladı.
Nə olsun ki?!
Qarı düşmən
Səni görcək
Qotur tökdü,
Qırışladı.

"Urvat"ından tez də düşdü,
Qəpiklədi,
Quruşladı –
Heçə döndü.
Sənin vulkan hayqırtından
Sinən odlu peçə döndü.
Qənşərində düşmən yöndə
Şivən qopdu,
Vay başladı–
Nə başladı!.. [6, s. 17]

Bu parçada mübaliğə, metafora, bənzətmə və ritmik ahəng tərzinin komandir Vüsal Kazımovu görcək onun igidliyi qarşısında erməni qəsbkarlarının necə gülünc, tragikomik bir vəziyyətə düşmə anlarının təsvir – təcəssümdə olduqca inandırıcı, təsirli alınmasında olduqca mühüm rol oyandığını aydın görür və hiss edirik. Situativ mənzərənin ifdəsində məcazların işləkliyi vüsətli və dominantdır. Düşmənə yönəli: qotur tökdü, qırışladı. Urvatından tez də düşdü, qəpiklədi, quruşladı – heçə döndü – kimi ritmik misraların, – pulun yox, erməni xislətinin, sifətinin, kimliyinin mənəvi devalivasiyasını özündə necə də parlaq təcəssüm etdiyinin şahidinə çevrilirik:

Sənin vulkan hiddətində
Düşmən tərəf qotur tökdü –
Qoturladı,
Qatırladı.
Sənin əlin silahından
Düşmən yönə gülləni yox,
Qəzəbini,
Nifrətini qatarladı. [6, s. 17]

Bu parçada isə mətnin metaforikləşmiş məzmun yükü hələ bir yana, qafiyələrin –"qoturladı, qatırladı, qatarladı" şəklində işlədilməsi, onlarda üçhecalı bölgü intonasiyasının sərbəst şeir çərçivəsində bu cür məharətli tətbiqi, əlbəttə, şairin şeir texnikasına dərindən bələdliyinin nəticəsidir:

Merdi zoə merd!
Sənin gücün
Səngərində cəsur, mətin
Duranların döyüşünə kömək oldu.
Düşmənə qapaz endirən
Dronların döyüşünə kömək oldu. [6, s.19]

Bu mətnin dördüncü və altıncı sətirlərin əvvəlində qafiyələndirilmiş "duranların", "dronların", yaxud digər bir parçadakı "barmağın", "yumruğun" ifadələrini isə, hətta şeir texnikasında məharətlə işlənilmiş təzə, orijinal qafiyə nümunələri də adlandırmaq olar. Poemada bu tipli qafiyələrə kifayət qədər təsadüf etmək olar. Ümumiyyətlə, E.Səfərli şeir və poemalarında qafiyə sistemi rəngarəng və zəngindir.

Əsərin lirik qəhrəmanı Vüsal Kazımovdur, o, cəbhə komandiridir, baş leytenantdır. Lənkəran Dövlət Universitetini bitirmişdir, sonra isə Lənkəran Uşaq və Gənclər idman məktəbinin direktoru vəzifəsində çalışmışdır. Həmişə göz qabağında olmuş, böyük məsuliyyət daşımışdır. Ən əsası isə cəbhə üçün savadlı, təcrübəli zabit kadrıdır. Vətəndaşlıq duyğusu da çox güclüdür. Vətən qarşısında məsuliyyətini hiss edən və onun hər qarış torpağı üçün canından keçməyə hazırdır. Çünki milli mənlik şüurunun yetkinliyinə, mənəvi tərbiyəsinə, vətənə, torpağa bağlılıq hisslərinə görə, Vüsal Kazımov babası 1941-45-ci illərdə müharibə vateranı Şahverən Kazımov kökünə mənsubdur. Digər cəbhə yoldaşlarını da bu istiqamətdə birləşdirməyə, mübariz ruha səfərbər etmək çabalarında çevikdir. Bütün bu keyfiyyətlər daha çox onun mülki vətəndaşlıq iradəsi ilə bağlıdır. Cəbhədə isə o artıq öz hərbiçi xüsusiyyətləri ilə fərdi portretini tamamlamalıdır.

Şairin Vüsalla bağlı – harda döyüş var, qələbə var, Vətən naminə birlik var, əzm var – Vüsal ordadır qətiyyətli deyimi də məhz onun mübariz vətəndaşlıq keyfiyyətləri ilə, sokral kredo duyğuları ilə bağlıdır:

Vüsal da ordaydı
Komandasıyla.
Vüsal da orda idi
Qələbə sədasıyla. [6, s. 22]

Bu və digər bu tipli bəndlər bir cəbhə qəhrəmanının qeyd etdiyimiz kredosunun təcəssümüdür.

Şair onu əbəs yerə böyük hökmdar – şair Qazi Bürhanəddinin igid döyüşçüləri ilə müqayisə etmirdi. Çünki Vüsalın da fədakarlığı döyüşlərin bütün məqamlarında böyük qazi demiş: "Ərанə və şiranəydi, necə ki, ərənlərin hər işi əranədir, qaplanların tutduğu iş şiranədir". Şairin "merdi zoə merd" xitabı əsərin əksər bölmələrində təkcə qəhrəmana yönəli emosional-ekspressiv bir nida yox, onun cəbhədaşlarını da əsil cəngi kimi düşmənlə əlbəyaxa döyüşlərə çağırış sədalı ruhlandırıcı hayqırtı idi, qələbəyə səfərbəredici himn idi. Bunu da qeyd edək ki, lirik qəhramana – merdi zoə merd – müraciət nidası əsərin qəhrəmanlıq ruhunu, pafosunu bir himn kimi ifadə etmədə olduqca uğurludur.

Qəhrəmana məhz həmin ifadənin döyüşqabağı söyləntisi onun – "yer titrərdi komandirtək, qiyyasından, nərəsindən" əzmi qarşısında düşmənin qorxudan "tük töküb" ayı kimi öz mağarasına çəkilməsinə kifayət edirdi. Və əsil qəhrəmanlara xas belə bir əzm, şübhəsiz ki, onun düşmənlərə qarşı böyük qisas amalının da tezliklə həyata keçirilməsini aktuallaşdırılmalı, zəruri etməli idi:

Əvəzini çıxmalıydı
Xocalının.
Damarını qırmalıydı
Qəvi düşmən əcəlinin.

Nə gördü ki, nə də doya
Süd qoxulu körpəsindən.
Yüz Xocalı körpəsinin
Qisasıyçün
Vurdu düşmən təpəsindən. [6, s. 15]

Xocalının, əcəlinin ifadəsinin qafiyə orijinallığı, təsir vüsəti necə də diqqətçəkəndir... Şair ümumi qələbə payında Vüsalın da öz töhfəsi olduğunu vurğulayır. Amma bu töhfənin əldə olunmasını çox haqlı olaraq özünün yazdığı kimi Azərbaycan armadasının ümumi mübarizə əzmi, başda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli siyasi iradəsi və "Dəmir yumruq" siyasəti ilə bağlayır. Xüsusən də, bu siyasətin çətində bütöv xalqı ətrafında bir tam kimi birləşdirmə məharətinin qüdrətli olmasının poetik vüsətlə ehtirafı əsərin ən müsbət cəhətidir:

Bir gün dilə gəlməliydi
Azərbaycan armadası.
Bir gün əsgərimizin yazılmalıydı
Qəhrəmanlıq balladası,
Bahadırlıq odası. [6, s. 20]

Kökü üzülməliydi
Rəzalətin.
Təntənəsi olmalıydı
"Dəmir yumruq" siyasətin [6, s. 21]

Poemanın ən təsirli, ən kövrək məqamı altıncı bölmə ilə bağlıdır, desək heç də yanılmarıq. Çünki "özünün dünya ilə nəfəs kəsimində – son nəfəsində gözünü qapayan bir anlıq yuxusunda Vüsal kəndini görür". Əslində bu bir an rəmzi bir müddət göstəricisidir, o bir an da ola bilər, bir saat da, yaxud da... Vüsalın "atasının azacıq da olsa qəddinin büküldüyünü, üzündə dərd qırışının əkildiyini, anasının həyata güvənsizliyi kimi görünən qaşlarının kədərli

düyününü, qızları Nurayın, Aynurun anası Ayselin dizləri üstə kədərli oturuşunu, bu kədərli məqamda tənha söyüdün "saman çöpü sarı saçlarını arxdakı çaya töküldüyünü" görməsi, həqiqətən də, ürək dağlayıcıdır. O, cəbhədəykən doğulan Aynurun üzündən ilk dəfə əyilib öpməsi ürəyini qubarlandırır, kövrəldir, həsrətini daha da artırır və övlad qarşısında bu üzücü həsrət üçün özünü ilk dəfə günahkar bilir.Və qızlarında kökünü-köklərini görəndə rahatlanır, qızlarında gələcəyini, o köklər üstündə ölməz oğul kimi hələ bitəcəyini düşünür və bu xəfif təsəlliyə güvənir:

Bu duyğudan
Ürəyi isnişdi.
Və yenə də Qarabağa tələsdi.
Çünki hələ döyüşlər
Bitməmişdi. [6, s. 31-32]

İlahi, insanın ani yuxusunda da mübarizəyə, döyüşə tələsməsi hissi necə də qürurvericidir. Bu misralar bir daha sübut edir ki, şəhidlər heç vaxt ölmür, ölsələr də onların Vətənə, torpağa bağlılıq hissləri heç vaxt ölmür. Ailəcanlı Vüsal kimi onların Vətənlə, ailələri ilə ruhi əlaqəsi, bağlantısı bitmir, tükənmir. Özlərindən sonra da o hisslər, o mübariz döyüş yolu gənc nəsil üçün görk olur, örnək olur!..

"Bir anın yuxusu" poeması "Cənab baş leytenant" rədifli gəraylı, "Etmişəm" gəraylısı və "Epiloq" xarakterli iki parça ilə bitir. Tənqidçi Vaqif Yusifli bu poemanı poetik himn kimi səciyyələndirir. Amma biz əlavə edərdik ki, bu poema, həm də bəzi bölmələrinə və xüsusən də, qeyd etdiyimiz "Cənab baş leytenant" gəraylısına görə kədərli bir rekviyemdir. Elə bir rekveym ki, ömür sapı həyatından çox tez üzülən bir igid qəhrəmanın rəşadət yolu ilə bağlı həyat tarixçəsini üzüntüsüz, kədərsiz, qüssəsiz oxumaq olmur.

Görkəmli tənqidçinin yuxarıdakı fikrinin ardını gətiririk: "Bu poema lirik səpkidədir, şairin şəhid-qəhrəman balamıza həsr etdiyi poetik himn kimi yazılıb. Burada qəhrəmanlıq təsdiq və etiraf olunur. Hər bəndi, hər parçası od kimidir. Soyuq, ürəkdən gəlməyən misralara rast gəlinmir" [6, s. 6]

Həmin şeirdən bir neçə bəndə nəzər yetirək:

Yeni qələbən mübarək,
Sevin, cənab baş leytenant.
Qələbələrin ard-arda
Gəlsin, cənab baş leytenant.
Sən qalibsən,
  sən müzəffər,
Sən düşmənə çaldın zəfər.
Bunu hər kəs, hər bir nəfər
Bilsin, cənab baş leytenant.

Yıxdın şərin dam-daşını,
Əzdin ilanın başını.
Sən uddun,
  xalq göz yaşını
Silsin, cənab baş leytenant.

...Xankəndiyə varmalıykən,
Hələ zəfər çalmalıykən,
Sən general olmalıykən
Susdun, cənab baş leytenant!

Amma arzun gülər,ölməz,
Necə ki, şəhidlər ölməz.
Necə ki, ömr edər, ölməz
Yurdun, cənab baş leytenant! [6, s.33-34]

Həqiqətən də, Azərbaycan ordusu baş leytenant, Vüsal Kazımov kimi general olmağı haqq edən, buna layiq olan bir igid qəhrəman zabitini çox erkən itirməsi faktına təəssüflənir və təəssüflənəcəyi şübhəsizdir.

"Bir anın yuxusu" poemasına yazdığı "Ön söz" də V.Yusifli qeyd edir: "*Əslində, şəhidlik qəhrəmanlığın təsdiqidir və şəhidlikdən qəhrəmanlığa gedən yol UCALIQDIR...*"

Türk şairi Nihal Atsızın –
Qəhrəmanlıq – içərək
Acı ölüm tasından,
İrəliyə atılmaq
Və sonra dönməməkdir.

Şeirinə müraciətindən sonra həmin şeirin ruhuna uyğun olaraq V.Kazımov haqqında sözünün ardını gətirir. "*Vüsal Kazımovun şəhidliyi də İRƏLİYƏ ATILMAQ və öz qəhrəmanlığını təsdiq etmək idi*" [6, s. 5]. Və bundan sonra tənqidçi, şair E.Səfərlinin əsərlə bağlı böyük zəhmətini, poetik uğurunu qeyd etməyi də unutmur və "Ön söz "də fikrini belə yekunlaşdırır: "*E.Səfərlinin poeması özünəməxsus poetik biçimdə, təqdimatda məhz bu həqiqəti söylədi... mən bu poemanı yazdığına görə E.Səfərliyə təşəkkür edirəm. O, bir şair kimi əlindən və qələmindən gələni məqbul sənət müstəvisində deməyi, poetikləşdirməyi bacarmışdır*" [6, s.10].

Elşad Səfərlinin poeması kifayət qədər özündən söz etdirməyi bacaran bir yaradıcılıq nümunəsidir, desək, düşünmürük bu kiməsə mübaliğəli görünsün. Çünki bu qiymətli əsər, V.Yusiflinin qeyd etdiyi kimi, məlum poetik sənət prinsiplərini özündə kifayət qədər ehtiva, əhatə edən bir yaradıcılıq nümunəsidir və bu sənət tipinin istənilən qədər sənətkarlıq, ideya-mövzu və obrazlı bədii xüsusiyyətlərindən bəhs açmağa potensiallıdır. Fikrimizin sübutu kimi bu poemanın təsir effekti haqqında ürək sözlərini paylaşmış filoloq-alim, dosent A.Əliyevin "Bu, Elşad Səfərlidir" başlıqlı qeydlərini təqdim edir, düşünürük ki, bu qeydlər əsərin sənətkarlıq və bədii təsir xüsusiyyətlərini müəyyən qədər isbatlamış olur:

"*Poemanı – "Bir Anın Yuxusu"nu vərəqləyirəm. İnanmazsınız, Elşad Səfərli bütün ürəyini qoyub burda. Düşmənə nifrətini, Vətəninə, millətinə sevgisini, şəhidliyin ölümsüzlüyü haqda bu günə qədər deyilməmiş çox mətləbləri həm çılğın, həm də üsyankar bir qələmi ilə ortaya qoymuşdur. Bu adi bir poema deyil. Bu, bir şəhidin deyil, onun arxasında duran minlərlə qazinin, hər bir döyüşçünün həyat hekayəsidir. Elə hekayə ki, onun hər sətri, misrası yaddaşa ədəbi həkk olunur. Burda tarix var, fəlsəfə var, döyüş var, məhəbbət var, intizar var, dünənlə bağlantı var, gözyaşları, qübar var, düşmənə sonsuz nifrət var, qələbə var, kişilik var! Bilirsiz niyə? Çünki onun qəhrəmanı mərd oğlu mərddir, Merdi zoə merddir, Kişi oğlu kişidir – VÜSAL KAMRAN OĞLU KAZIMOVDUR! Müəllif illərlə yaşadığı məhəbbəti də, nifrəti də əsərə gətirə bilib. Vulkan kimi püskürür. Təəccüblənirsən ki, ilk misrasından son misrasınadək hiss, həyəcanla dolu olan bu poemanın müəllifi ürəyindəkilərini ağ kağıza köçürərkən, görəsən nələr çəkib? Və nə yaxşı ki, onun ünvanları dəqiqdir, səlisdir, gün kimi aydındır. Əsərin təsirindən indi də çıxa bilmirəm. Kişilər ağlamır. Amma mən də təsirləndim. Elşad Səfərli qələmi məni, hətta ağlatmağı da bacardı. Bu bəlkə də müəllifin qələbəsidir. Amma onu da deyə bilərəm ki, insanları ağladanlar hələ də var!"* [2, Facebook, 19 fevral, 2022].

Şairin təqdimatında Vüsal Kazımovun qəhrəmanlığı bizim üçün milli yaddaş, heç vaxt unudulmayan, gənc nəslin təlim-tərbiyəsində, onların mübariz ruhda köklənməsində əsil motivasiya, örnək faktıdır, qürur doğuracaq, həmişə sinələrini iftixarlandıracaq fəxr salnaməsidir. Vüsal Kazımov kimi igidlərimizin şəkilləri, portretləri, onlarla bağlı çəkilmiş kino-filmlər, asılmış stendlər, təşkil edilmiş kompozisiyalar, ucaldılmış heykəllər, abidələr, büstlər, yazılmış şeirlər, poemalar, kitablar, bəstələnmiş musiqi əsərləri, mahnılar, nəğmələr, adlarına həsr edilmiş bağlar, xiyabanlar, parklar, küçələr ehtiram, sayğı göstəriciləri, vasitələri olsalar da, ilk növbədə müasir yeniyetmələrimiz, gəncliyimiz, ümumən insanlarımız üçün motivasiya mənbəyimiz, qaynaqlarımız, şanlı müasir tariximiz və görüb-götürəcəyimiz, ideyaları ilə yaşayacağımız mərmər kitabələrimiz, abidələrimiz, ədəbiyyatlarımızdır.

Bu cür şanlı, igid qəhrəmanlarımız qarşısında buna görə də ehtiram, sayğı, hörmət hisslərimiz həmişə diqqətdə olmalıdır.

Elşad Səfərli adını şanlı hərb tariximizə qızıl həriflərlə yazmış igid Vətən oğullarından biri kimi Vüsal Kazımovla bağlı düşüncələrini təkcə poema ilə yekunlaşdırmır, poemadan sonra da onun haqqında fikirlərini, qənaətlərini poetikləşdirir. O bununla kifayətlənmir, ona görə ki, qəhrəmanlıq, şəhidlik mövzusu heç vaxt bitməyən, tükənməyən, yazıldıqca yazılacaq əbədi, dünyəvi mövzudur. Onun "Mərmər ehtiram", "Vüsalın anım gününə....", "İgidin qəbrinə güllər düzülüb", "Vətən sevdalı igid" və "Bu gün qəhrəmanın anım günüdü" kimi şeirlər Vüsal Kazımovun qəhrəman portretinə əlavə edilmiş, onun lirik xarakterinin açılmasına xidmət edən yeni tamamlayıcı obrazlı cizgilər, şücaətinə, igidliyinə bəslənilən hüsnrəğbətin, ehtiramın, sayğının və diqqətin nümayişi təsiri bağışlayır. Həmin nümunələrdə biz qəhrəmana ehtiramın müxtəlif təzahür formalarını görürük. Birində mərmər daşı, birində qəhrəmana onun haqqında xatırlama verən qələm, birində onun keşiyində duran çiçəklər, birində "Doğulduğu kənddə, yuxarı başda Vətən sevdalısı bir igidin uyuduğu məzar", digərində isə "İgid baş leytenantın anım günündə onun qarşısında "farağat duran insanlar həmin ehtiramın təcəssüm obrazına çevrilir". Ehtiram hissi bu şeirlərdə insanlarla yanaşı, obrazlaşan, metaforikləşən, məzar ətrafı, məzar üstü predmetlərin: gülün, çiçəyin, çələngin qəhrəmana anım günündə göstərdikləri sevginin, məhəbbətin, sayğının təzahürü kimi mənalanır. Və obraz libasında şeirlərin təsir elementinə çevrilir. "Mərmər ehtiram" şeirinə nəzər yetirək:

**I**
Mərmər də ehtiram nişanəsiymiş,–
Daşın xislətində xoşmuş bu məram.
İgidin qəbrini dörd bir tərəfdən
Dövrəyə almışdı mərmər ehtiram.
Əbədi bir yolda o da yolçuydu,
Xidmətində idi daş – leytenantın.
O həm də fəxri bir qaravulçuydu
Məzarı başında baş leytenantın.

**II**
Borcumdu.... və borcumuzdu,–
Qələmi ilhama verdim.
Qələmə ürək sözümü
Səndən xatırlama verdim...

**III**
Bu gün qəhrəmanın anım günüdü,
Hamı məzarının başında durub.
Cənab, baş leytenant, canlısan deyə
Gələnlər farağat qarşında durub.

Elşad Səfərli poeziyasının ictimai məzmun əhəmiyyəti daha çox onun mənəvi birlik, milli mənlik şüurunun tərbiyəsi, vətəndaşlıq və Vətənin bütövlüyü ideyaları ilə sıx bağlılığındadır. Bu istiqamətdə də şairin poetik axtarışları heç də az deyil. Şairin şeirlərində və bir neçə poemasında vahid və bütöv Azərbaycan ideyaları geniş mənada həmin əsərlərin leytmotivini təşkil edir; Vətən, vətənpərvərlik, vətəndaşlıq anlayışlarını da özündə birləşdirir. Çünki bu anlayışlar bir-birini tamamlayır və Vətənin varlığı üçün əsas şərtə çevrilir. Vətən – milli bir çərçivədə, coğrafi arealda hüdudlanan bir ərazi vahididir, lakin onun mövcudluğu üçün dil, bəlkə də ən vacib bir atributdur. Deməli, Vətən həm də öz mövcudluğunda yalnız dil ilə birlikdə bu hüququ qazanmışdır, çünki dilsiz Vətən yoxdur. Buna görə də Vətənin müstəqillik statusunda dil ən vacib faktorlardan birincisidir. Bəlkə elə buna görədir ki, E.Səfərlinin lirikasında Vətənlə dil həmişə bir tutulur və biri digərinin mövcudluğunu şərtləndirən komponentlər kimi qəbul edilir. Dillə bağlı əksər şeirlərində dilinə xor baxanlara, ona istehzalı münasibət bəsləyənlərə qarşı şairin mövqeyi çox sərtdir. Buna görə də ədəbiyyatşünas alim M.Məmmədovun "*Azərbaycan dilini rəsmi idarələrdən didərgin salanlara qarşı şeirimiz vətəndaşlıq mövqelərindən apardığı mübarizəni gücləndirməlidir*" [3, s.175] mülahizəsi ilə şairin qənaətləri üst-üstə düşür. Onun "Dilim, torpağım" şeiri erkən yaradıcılıq nümunəsi kimi bu tendensiyanın ilkin cücərtiləri sırasında özünə yer almışdır:

Bir istək qəlbimi yandırar nəsə,
Həsrətim gözümdə bulanan sudur.
Araz bu torpağın ikiliyisə,
Dilim bu torpağın bütövlüyüdür. [7, s. 6]

Şairin qənaətində dilin birliyi vətənin birliyi deməkdir, vətənin bütövlüyüdür. Torpağı parçalansa da dilinin bütövlüyü ilə təsəlli tapır, ərazi bütövlüyünün itirilməsi faktını da ötəri, keçici bir hal kimi xarakterizə edir. İnanır ki, zaman gələcək bu tarixi ədalətsizlik də aradan qaldırılacaq:

Hicrandan könlümü qəm dindirsə də,
Bir xoş təsəllidir qəlbimdə bitən.
Əgər dil birdirsə, ürək birdisə,
Torpaq bölünsə də bölünmür Vətən. [ 7, s. 6]

Bu bənddə metaforikləşmiş fikir təkcə milli mənlik şüurunun yetkinliyinin yox, eyni zamanda milli özünüdərkin, kök, ruh, dil birliyimizin, milli kimliyimizin ifadə faktıdır. “Vətən torpağıyam deyə”, “Aramızdan bir çay axır”, “Ya İlahi, ya Məhəmməd, ya Əli”, “Bayraq mənim bayrağımdır”, “Bakıda cəmləşən Vətən”, “Təkcə Bakı Vətən deyil”, xüsusən də “Bütövlük inamı” şeirində bu inama, ümidə qurban getməyə hazır olan Azərbaycan insanının bütövlük ideolojisinin daim təsiri altında olmasının, nəticəsindən asılı olmayaraq ona sadiqliyin əsil vətəndaşlıq nümunəsidir:

Bölünüb,
Bölünüb bütövlüyümüz.
Bölünüb ikiyə taleyimiz də –
Bölünüb suyumuz, çörəyimiz də.
Bu yurdun köksünə bir zərbə dəyib,
Ağrısı dolanır ürəyimizdə.

Bir inam yol gedir üzü sabaha,
Bir həsrət yol gedir,
Gedər yenə də.
Qurbanam bu xalqın inam eşqinə,
Qurbanam bütövlük istəyinə də. [7, s. 66-67]

Elşad Səfərli lirikasının bu yöndə poetik cəhdləri, mənəvi birlik səyləri daha çox inam, ümid kontekstlidir, buna görə də özünün əxlaqi örnək funksiyası ilə vətənin mühafizəsi, qorunması ideologiyasına dayaqlanır, əsaslanır, hər iki tayı ümumi ölkə bayrağı altında birləşməyə çağrışlar edir və bu istəyində dönməz inamlıdır. Və aşağıda ixtisarla verilmiş, şairin “Astiaq” poemasında tərənnüm edilən bayraq gec-tez məhz Təbrizdə asılacaq bayrağın ekvivalentidir:

Midiya – qədim zamana
Bağlı dövlət varlığımdır.
Uzaq üfüqləri aşan
Qonaq mənim qonağımdır.

.... Cənubda çox səddi keçən,
Marağa, Mərəndi keçən,
Şimalda Dərbəndi keçən
Torpaq mənim torpağımdır.

Bağrımıza basılası,
Yolunda şəhid olası,
Təbriz üstə asılası
Bayraq mənim bayrağımdır! [8, s.224-225]

Milli kimliyimizin təcəssüm salnaməsini bizə xatırladan bu misralar həm də Azərbaycan insanının əsil vətəndaşlıq mövqeyini sərgiləyir, bu insanın vətənpərvərlik amalının həmin vətəndaşlıq mövqeyindən nəşət etdiyini müəyyənləşdirir, müasir gənc nəslin təlim-tərbiyəsində onlara milli mənlik şüurunun aşılanması işini bu aspektdən daha da zəruri edir və aktuallaşdırır. Milli mənlik şüurunun tərbiyəsi faktoru həm də milli şüurun təsdiqini sübutlayır. Çünki yalnız yetkin milli şüura malik insanlar öz vətənlərinin mühafizəsini, qorunmasını təmin edə bilərlər. Aşağıdakı misralarda ehtiva olunan qətiyyətli fikir, yalnız yetkin milli şüur sahiblərini itirilmiş torpaqların geri qaytarılmasına, vətənin bütövlüyünün bərpasına hərəkətləndirə, istiqamətləndirə bilər:

Az qalıbdır düşmən ilə son cəngə,
Xoşluq ilə bitməzsə bu işgəncə,
Üç ad çəkib, əl ataram tüfəngə –
Ya İlahi,
Ya Məhəmməd,
Ya Əli!... [1, s. 163 ]

Düzdür, bu tip vətənpərvərlik, vətəndaşlıq və vətənin bütövlüyü ideyalarını özündə birləşdirən şeirlərdə bəzi irad, tənə notlarına da təsadüf edirik, bununla yanaşı, nikbinlik hissi özünün üstünlüyünü qoruyub saxlamağı da bacarır. Vətəndaş və ictimai hiss narahatlığı, vətənpərvərlik motivləri bu qəbildən olan şeirlərdə bəzən ictimai qınaqları da vətənin ümumi mənafeyi naminə tərbiyəedici, ibrətləndirici faktor kimi heç də istisna etmir:

Araz bölümü bağrına dəymişkən,
Sən əyməliydin, yad səni əymişkən.
Vətən, sənin, Söhrab Tahir demişkən:
Heç çöpün də olmayaydı bölməli... [1, s.162-163]

Yeri gəlmişkən bir faktı da diqqətə çatdıraq. Son vaxtlar E.Səfərlinin yaradıcılığı haqqında ən çox yazan, onun çap olunmuş kitablarına resenziya xarakterli “Ön söz”lər yazan, qəzet və jurnallarda məqalələr çap etdirən Azərbaycan çağdaş tənqidinin görkəmli nümayəndəsi Vaqif Yusiflidir. Bu diqqətin ən təqdirəlayiq xüsusiyyəti bundan ibarətdir ki, bu tanınmış istedadlı tənqidçi E.Səfərli şeir və poemalarını səbirlə, təmkinlə çözür, təhlillər aparır, həmin nümunələrin uğurlarını qeyd edir, ən xırda bir tənqidində isə güzəştsiz görünür. Buna görə də bu məşhur tənqidçinin hansısa söz sənətkarı haqqında söz deməsi, əlbəttə, bu həmin şair, yaxud yazıçı haqqında nüfuz və diqqət məsələsi olmaqla yanaşı, həm də bu qayğıkeş yanaşmanın həmin imzaların ədəbi ictimaiyyətdə təsdiqi və tanıdılması anlamını doğurması da təbiidir. Filologiya elmləri doktoru V.Yusiflinin E.Səfərli haqqında fikirləri həqiqətən də mötəbərdir, çünki öz imzasına hörməti bir tənqidçi kimi onun üçün bir sıra meyarlardan daha yüksək önəm təşkil edir. Buna görə də qaynaqlara, bu şair haqqında sitatlara istinadlananda V.Yusifliyə müraciətlərimizdəki intensivlik məhz bu amillə bağlıdır. O həm də ədəbiyyatın poetika və nəzəri məsələlərinin mahir bilicisidir.

V.Yusiflinin E.Səfərli şeirinin poetikası, xüsusən də mövzu-janr xüsusiyyətləri haqqında təhlili mülahizə və fikirləri yetərincədir. Bu məqamda E.Səfərli poeziyasının vətən, vətəndaşlıq və vətənin bütövlüyü ideyaları haqqında yenə də bu görkəmli tənqidçinin bir sıra mülahizələrinə istinad etməyimizi yerinə uyğun və məqsədəmüvafiq hesab edirik. Tənqidçi yazır: “*XXI əsr Azərbaycanı –müstəqillik və mübarizə idealı onun şeirlərində də aydın nəzərə çarpır. Mən onun “Azərbaycan xalqı var” şeirinə müraciət etmək istəyirəm*”:

Biz birik – içimizdə
Aranlı var, dağlı var
Yaxın – uzaq fərq etməz,
Bütöv yurda bağlı var.

Mətin işində duran,
Haqq barışında duran,
Yad savaşında duran
DƏMİRYUMRUQ oğlu var.

O kəs ki, xalqla birsə –
Xalqa dirəklidirsə,
Vətən ürəklidirsə,
Vətəni var – ağlı var.

Çünki dirək verdiyi,
Çünki kürək verdiyi,
Çünki ürək verdiyi,
AZƏRBAYCAN xalqı var... [ 9, s.111]

Bu şeirin, əlbəttə ki, ilk növbədə mübariz, döyüşkən ruh, vətənpərvərlik, birlik, yurdsevərlik, bütöv Azərbaycan duyğusu diqqəti çəkir və daşdığı bu motivlərin vəhdətində hər misrası daha siqlətli, təsirli görünür.

Bu şeirdə ikinci Qarabağ müharibəsində erməni-daşnak, qəsbkar faşizminin bel sütununu qıran şanlı ordusunun və özünün böyük siyası iradəsi, düşmənin başından Koroğlu toppuzu kimi dəyən "Dəmir yumruq" siyasəti, Ali Baş Komandan diplomatiyası, məharəti və səriştə nümayişi ilə qələbə sevincini bizə yaşadan, torpaqlarımızı qaytaran, Böyük Vətənimizin tərkib hissəsinə çevirən Prezidentimiz Cənab İlham Əliyevin dayaqlandığı Azərbaycan xalqının əzəməti, vüqarı, döyüşkən ruhu poetikləşmişdir. Şair yaxın dövrün bu şərəfli tarixinin obrazlı lirik mənzərəsini məharərtlə cəmi dörd bənddə təcəssüm etdirməyi bacardığına, yüksək ideya-məzmun tendensiyasına görə, həcmindən asılı olmayaraq bu şeir əhəmiyyətlidir və onun təsir ampluası genişdir. Bu şeirin suverenlik, bütöv Azərbaycan idealları, ideyaları ibrətamizdir.

"Mən – Azərbaycan oğlu...." şeirində isə Azərbaycan xalqının böyük türk dünyası, xüsusilə də Türkiyə ilə qardaşlıq bağlantılarımızın sıx olduğunu qənaətbəxş poeziya kontekstində apaydın duya, görə bilirik. Biz bu poeziyanı təkcə görüb duymuruq, biz bu poeziyanı özümüzdə bütün rəngləri ilə, poetik çalarları ilə bir növ yaşayırıq:

Yerlipərəst deyiləm –
Regionçu da deyiləm.
Bu amaldan çox uzaq,
Birinci,
ya onuncu –
Sonuncu da deyiləm.
Dağlı,
Çöllü – nə bilim,
Arançı da deyiləm.
Felə uyana arxa
Durançı da deyiləm.
Bəlkə də vaxtı deyil,
Turançı da deyiləm.
Mən vəhdət tərəfdarı –
Təfriqəçi deyiləm.
Rəngin birinə uyan
Ya bir irqçi deyiləm.
Mən Mehmet Akif Ersoy,
Tofiq Fikrət ruhluyam,
Nihal Atsız ruhluyam.
Azadlıq duyğuluyam –
İki dövlət sevgili
Azərbaycan oğluyam...

Mən – Azərbaycan oğlu –
Vətən amallısıyam,
Millət sevdalısıyam.
Mən üç rənginə sadiq
Bir bayrağa biətli –
O tay,
bu taya aşiq
Dövlət sevdalısıyam.
Vətənpərəst görsəniz,
Millətpərəst görsəniz
Basın bağrına onu.
Yerlipərəst görsəniz,
Son nəfəsində belə
İtirməmiş huşunu –
Başına sığal kimi
Çəkin onda qurşunu ...

Bu şeir ilk növbədə özünün Azərbaycançılıq ideologiyası və Türkiyə ilə bağlılıq ideyalarına görə çox mühüm əhəmiyyət daşayır. Şeirdə göründüyü kimi lirik "mən" Türkiyə ilə vəhdət, bilik tərəfdarıdır. Onun təbiətində kökə bağlılıq hissləri qabarıqdır, beynəlmiləlçilik duyğularından da uzaq deyildir. İrqçi də deyildir, bir rəngə uyub özünü ali irqə mənsub da saymır. Onun üçün belə ucuz etiketlər yoxdur. Məhşur türk şairləri: Mehmet Akif Ersoy, Tofiq Fikrət və Nihal Atsızla eyni ruha sahib – azadlıq niyyətlidir və nəhayət, iki dövlət sevgili Azərbaycan oğlu olması ilə fəxr hissi keçirir. Özünü – "*mən – Azərbaycan oğlu vətən amallısı, millət aşiqi, üç rənginə sadiq, bir bayrağa biətli, o tay, bu taya aşiq dövlət, vətən sevdalısı*" adlandırır. Bu şeir milli mənlik şüurunun yetkinliyi aspektindən, əsl vətəndaşlıq prizmasından vətənin bütövlüyü ideallarına, ideyalarına sadiqliyin təbliği, tərənnümüdür.

"*Təbii ki, hər bir şairin yaradıcılığında onun Vətən, tarix, həyat, mübarizə ideallarını əks etdirən bir əsəri olur. Bu əsərlə şair şeirlərindən fərqli olaraq geniş, üfüqi xətt boyunca "hərəkət" edir. Əlbəttə, bu cür hərəkəti, belə genişliyi ancaq poema janrı reallaşdıra bilər. Bunu da qeyd edək ki, müəllif bu sahə üzrə yetərli poetik təcrübə sahibidir, epik və lirik növdə 16 poema yazmışdır. "Mavi məsafə" lirik poeması, məncə, onun indiyə qədər qələmə aldığı – çap etdirdiyi poemalarından onunla fərqlənir ki, burada müəyyən bir hadisə, konkret obrazlar heç bir rol oynamır. Əsas məsələ lirik düşüncə arealını ön planda təqdim edib bir hadisəni deyil, hadisələr silsiləsini əks etdirməkdir. Əlbəttə, E.Səfərli Azərbaycan tarixinin XIX-XX əsrlərdəki məlum səhifələrini bir də "oxuyur". "Məsafə"ni ayrılığın rəmzi kimi mənalandırır və məsafə məfhumuna özünün poetik mavi rəngini qatır və adi ayrılıqdan deyil, iki əsrdir bir-birindən ayrı düşən Azərbaycanın o tay, bu tayı ilə Arazlanan milli ayrılığı, vətən ayrılığını düşünür*" [ 9, s.11].

Araz məsafəsində –
Sular da lilli axır
Dayaz məsafəsində

Araz məsafəsində
Gözlər də lilli idi.
Qələmimin ucunda
Sözlər də lilli idi.
Tikanlı məsafadə –
Sərhəd məsafəsində –

Simlərin tikanından
Bülbüllərin sancılmış,
Həsrətləri dəlinmiş,
Qan vardı sinəsində.
Tikanlı məsafənin
Axırdı sel boyunca.
Qatar da şütüyürdü,
Həsrət də şütüyürdü
Bir paralel boyunca.
Su axır lilli – lilli, –
Araz lilləndirirdi
Uzun bir paraleli.
O paralelin lili
Baxışlardan keçirdi,
Əhvallardan keçirdi,
Yağışlardan keçirdi....
Bu tayın kefsizliyindən,
O tayın səssizliyindən keçirdi.... [ 9, s.198-199]

Şairin "Araz məsafəsində" təkcə suların lilli axdığını yox, gözlərdəki gözyaşının da lilli axdığını, həmin lilin uzu bir paralel boyunca baxışlardan, əhvallardan, yağışlardan keçdiyini obrazlılığın, məcaziliyin əksər növlərindən məharətli istifadə ilə necə də təsirli, emosional-ekspressiv ifadə etdiyinin şahidinə çevrilirsən və bu təsirdən yayınmağın mümkünsüzlüyündən də əmin olursan.

Və bütün bu ağrı-acıların, nisgilin, intizarın, həsrətin, üzüntünün səbəbinin isə – "bu tayın kefsizliyi, o tayın səssizliyi" olduğunu tam anlayırsan, Quzeyin kefsizliyindən çox, o tayın susqunluğunu qəbul edə bilmirsən, buna dözmürsən və haqlı olaraq aşağıdakı sualları ünvanına səsləndirməyə məcbur olursan. Çünki o tayın da "umduğu" bu taydandır:

| | |
|---|---|
| Kimliyin ordun göstərdi,<br>Kimliyin – yurdun göstərdi.<br>Bunu 44 gün göstərdi ...<br>Başda Ali Komandanla<br>Bilirsən ki, müzəffərsən-<br>Nə gözlərsən?! | Bu tay,<br>O tay – ulu bir can,<br>Sızlar həsrət dolu bir can.<br>Ayrılığın yolu – bir can,<br>Azərbaycan,<br>Nə gözəlsən?! [ 9, s. 210] |

Ümid dolu gözlərin yolu üzü Azərbaycanadır... Və o ümidli gözlər öz təkidində haqlı görünür. Çünki o gözlərin xəfif təskinliyi haçansa intizara son qoyulacağından, Cənublu soydaşlarımızın əliqanlı molla rejimindən tezliklə qurtulacağından, bütöv Azərbaycan ideallarına qovuşacağından ona görə bu qədər əmindilər ki, –

... O qantökən başından
Bir gün yumruq alacaq.
Təbrizi, Ərdəbili
O qaniçən xuntadan
Dediyim o qəhraman –
Millətə Baş Komandan –
Dəmir yumruq alacaq.
İtirib yerli-dibli
Bu hicrana, nisgilə
O özü son qoyacaq... [ 9, s. 219]

Azərbaycan İkinci Qarabağ müharibəsində erməni qəsbkarları üzərində sarsıdıcı zəfər qazanandan sonra öz əzəli torpaqlarına, suverenliyinə qovuşdu, kifayət qədər hərbi potensialını, gücünü qüvvətləndirdi. Lakin Azərbaycan Cənub coğrafiyamızla bağlı problemlərimizi həll etmədən arxayın ola bilməz. Bu problemin həllini poemada göründüyü kimi, Güneyli soydaşlarımızın Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevlə, onun müdrik siyasəti ilə bağlamaları heç də təsadüfi deyildir. İndi "Tanklarında "Z" gəzdirən"lərin təhdidi də Azərbaycanı hansısa addımından çəkindirə bilməz. Aşağıdakı şeir vətən amalımızın, vətəndaşlıq mövqeyimizin, bütöv Azərbaycan ideallarımızın poeziya dili ilə yüksək təcəssümu nümunəsidir:

Vətən, şəkk edən, gücünü
Qulağın burdun, görəcək.
Bu da az etsə, başından
– YUMRUQLA vurdun, görəcək.

... Hiylən tutmaz söz gəzdirən –
Maskalanmış üz gəzdirən.
Tanklarında "Z" gəzdirən
Boynunun ardın görəcək.

Üzləşsən də nahaq qanla,
Xalqım, sınma and-amanla.
Zəfərin var – KOMANDANLA
Bu işi ordun görəcək!..

Poemanın sonluğu ilə bağlı tənqidçi V.Yusifli yazır: *"Şairin "vətən birləşə bilmir" naçarlığı get-gedə nikbin notlarla tamamlanır"*:

O tökülən qanlara
Baxıb, gəlib zinhara.
Bakı,
Təbriz,
Astara
Vətən birləşmələridir!!![ 9, s. 217]

Tənqidçi sözünün davamında axırda bunu da deməyi unutmur: "Düşüncələrimizi yekunlaşdırıb bunu da qeyd etməyi vacib bilirik ki, bu poema şairin yaradıcılığında çox uğurlu alınmışdır" [10; 12].

**Ədəbiyyat**


1. Eminov, A. Elşad Səfərlinin poeziyası: Düşüncələr, mülahizələr / A.Eminov, – Bakı: Elm və təhsil, – 2015, – 214 s.
2. Əliyev, A. Bu, Elşad Səfərlidir. Feysbuk, 19 fevral, 2022, $10.14^{00}$ da.
3. Məmmədov, M. Poeziya yeni təfəkkür işığında / M.Məmmədov, – Bakı: Yazıçı, – 1990, – 175 s.
4. Səfərli, E. Şair təkliyə məhkumdu. Şeirlər və poema / E.Səfərli, – Bakı, Nurlan, – 2004, – 204 s.
5. Səfərli, E. Yalnız sevgi / E.Səfərli. – Bakı: Şans, – 1998, – 128 s.
6. Səfərli, E. Bir anın yuxusu. Poema / E.Səfərli. – Bakı, – 2022, – 42 s.
7. Səfərli, E. Dünya ömür yoludur / E.Səfərli, – Bakı: Gənclik, – 1991, – 96 s.
8. Səfərli, E. Alması düşməyən nağıllar. Şeirlər və poemalar / E.Səfərli. – Bakı: Elm və təhsil, – 2016, – 244 s.
9. Səfərli, E. Ayrılıqlar vağzalı. Şeirlər və poemalar / E.Səfərli. – Bakı: Gənclik, – 2023, – 248 s.
10. Yusifli, V. Ayrılıqlar vağzalı. Ön söz. Şeirlər və poemalar / V.Yusifli, – Bakı: Gənclik, – 2023, – 248 s.


**K.Sh.Kazimov**

**The Theme of the Second Karabakh War in Elshad Safarli's Lyrics is the Idea of Spiritual Unity and Integrity of the Motherland**

***Summary***


In the article, the issue of the position of the subject of the second Karabakh war in the lyrics of the poet Elshad Safarli was touched upon, and in this background, the idea-artistic features of the upbringing of the national self-consciousness of the Motherland and the motives of citizenship were investigated.

Explanations and analyzes were carried out on a number of specific examples, and their spiritual-aesthetic, home, matherland, country attachment context was defined. In this regard, in the poem "A moment`s dream", the heroic chronicle of the martyred senior lieutenant Vusal Kazimov was referred to as a generalized exemplary history of an Azerbaijani warrior.

In the article, a brief analysis of the poem "Blue Distance" was reviewed, the struggle of the Azerbaijani people for the role models of national freedom, moral unity, unity, and the integrity of the Motherland was justified in this poem as a fact of self-awareness and self-affirmation.


***Key words:*** *Lyric context, chronicle, senior lieutenant, Karabakh, role models*

**Кямран Шахверен оглы Кязимов**

**Тема Второй Карабахской войны в лирике Эльшада Сафарли – идеи духовного единства и целостности Родины**

***Резюме***


В статье освещена тема Второй Карабахской войны в поэзии Эльшада Сафарли и на этом фоне исследованы идейно-художественные особенности воспитания национального самосознания и мотивы гражданственности.

Были проведены пояснения и анализ в ряде конкретных примеров, определен их духовно-эстетический контекст привязанности к стране, земле, Родине. В связи с этим в стихотворении «Сон одного мгновения» героическая летопись шехида старшего лейтенанта Вусала Кязимова названа обобщенной образцовой историей азербайджанского воина.

В статье рассмотрен краткий анализ стихотворения «Голубая даль»; в этом стихотворении обоснована борьба азербайджанского народа за идеалы национальной свободы, нравственного единства, единства и целостности Родины как факт самосознания и самоутверждения.

***Ключевые слова:*** *лирический контекст, хроника, старший лейтенант, Карабах, идеал*

*Rəyçi: prof. T.H.Cəfərov*

*Redaksiyaya daxil olub: 10.04.2025*